# BİL, 20 YANVARDIR

Gördün ki, şimaldan şütüyür tanklar,
Gördün ki, havada barıt iyi var,
Ah çəkir analar, ağlayır zar-zar -
Bil, 20 Yanvardır!

Gördün avtomatdan güllə ələnir,
Azadlıq yoluna qan səpələnir,
Fəryadıma Allah göylərdən enir –
Bil, 20 Yanvardır!

Gördün buludlarda cizlənir səhər,
Matəm köynəyini geyinir şəhər,
Üçrəngli bayraqdan asılıb kədər –
Bil, 20 Yanvardır!

E1 ağı deyəndə şəhid anama,
Düzdə ceyranıma, göldə sonama,
Kişilər ağlamaz... ağlayır amma –
Bil, 20 Yanvardır!

Gördün AZADLIĞIN doğur ülkəri,
Toy-düyün bürüyür bizim elləri,
Onun təməl daşı, onun cövhəri-
Bil, 20 Yanvardır!

Davud Dəmirli

"Həyat" qəzeti, 23yanvar 1993.